*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*12 (4) 2025*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:07.05.2025*
*Kabul tarihi |Accepted:23.08.2025*
*Yayın tarihi |Published:25.08.2025*

**Müşərrəf Həsənova**

*https://orcid.org/0009-0008-2891-8493*
*Lecturer, Doctoral student, Department of History and Ethnography, Azerbaijan National Academy of Sciences, Azerbaijan, hesenovamusherref@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Həsənova, M. (2025). Antik Müəlliflərdə Alban İti Hekayələri və Böyük İsgəndərin Qafqazda Olması Haqqında Müzakirələr. *Akademik Tarih ve Düşünce Dergisi, 12* (4), 936-959.

# Antik Müəlliflərdə Alban İti Hekayələri və Böyük İsgəndərin Qafqazda Olması Haqqında Müzakirələr

***Xülasə***

*Qafqaz Albaniyasının e.ə. IV əsr tarixinə dair məlumatların böyük qismi yunan və Roma müəlliflərinin əsərlərindəki coğrafi və tarixi qeydlərə əsaslanır. Bu mənbələrdən biri də Makedoniyalı İsgəndərin Hindistan yürüşü zamanı ona qeyri-adi ölçü və keyfiyyətlərə malik itlərin hədiyyə olunması hekayəsidir. Plini və Solin bu hədiyyənin Albaniya çarı tərəfindən təqdim edildiyini yazır, Strabon, Diodor, Kurtius və Yustin isə epizodun qəhrəmanı kimi Hind hökmdarı Sofiti göstərirlər. İlk baxışda ikinci dərəcəli detal kimi görünən bu məlumat tarixşünaslıqda mühüm problemlərin müzakirəsinə səbəb olmuşdur. Əsas suallar bunlardır: Alban itlərinin şöhrəti və İsgəndərin ekzotik məxluqlara marağı eyni səhnənin müxtəlif versiyalarının formalaşmasına gətirib çıxarmışdırmı? İsgəndərin yürüş marşrutu həqiqətən Qafqazdan keçmişdirmi? e.ə. IV əsrin 30-cu illərində alban tayfalarının liderləri "çar" tituluna sahib ola bilərdilərmi? Nəhayət, antik müəlliflərin, xüsusilə də Plininin müasirlərinin vurğuladığı kimi, hədiyyənin Hind çarı Sofit tərəfindən verilməsi faktı etibarlı tarixi sübutlarla təsdiqlənirmi? Məqalə bu sualları cavablandırmaq məqsədilə antik mənbələrin müqayisəli təhlilinə, eləcə də müasir tədqiqatların nəticələrinə əsaslanır.*

***Açar sözlər:*** *Alban iti, Böyük İsgəndər, Qafqaz, Atropat, Sofit*

# Accounts of the Albanian Dog in Ancient Sources and Scholarly Debates on Alexander the Great's Presence in the Caucasus

***Abstract***

*A large part of the information concerning the 4th century BCE history of Caucasian Albania is based on the geographical and historical records found in the works of Greek and Roman authors. One of these*

BY NC Creative Commons Licence

*sources is the account of extraordinary dogs of remarkable size and quality being presented as gifts to Alexander of Macedon during his Indian campaign. Pliny and Solinus write that this gift was offered by the king of Albania, whereas Strabo, Diodorus, Curtius, and Justin identify the Indian ruler Sophites as the protagonist of the episode. At first glance a seemingly secondary detail, this report has given rise to significant debates in historiography. The key questions are as follows: Did the fame of Albanian dogs and Alexander's fascination with exotic creatures lead to the emergence of different versions of the same scene? Did Alexander's route truly pass through the Caucasus? Could the leaders of Albanian tribes in the 330s BCE have held the title of "king"? Finally, as emphasized by ancient authors—particularly Pliny's contemporaries—can the statement that the gift was presented by the Indian king Sophites be confirmed by reliable historical evidence? The article addresses these questions through a comparative analysis of ancient sources and the findings of modern research.*

***Keywords:*** *Albanian dog, Alexander the Great, Caucasus, Atropates, Sophites*

## Giriş

Azərbaycan tarixinin mühüm səhifələrindən birini qədim dövrlərdə mövcud olmuş dövlətlər, xüsusilə də şimal torpaqlarını əhatə edən Qafqaz Albaniyasının tarixi təşkil edir. Antik Albaniyanın dövlətçilik ənənələri, idarəetmə məsələləri və dövrün siyasi hadisələrində iştirakı tarixşünaslıqda geniş müzakirə olunan mövzulardandır. Mənbələrin məhdudluğuna baxmayaraq, Makedoniyalı İsgəndərin Şərq yürüşləri çərçivəsində Qafqaz xalqlarının taleyi, tayfa birlikləri, onların müstəqil və ya yarımmüstəqil siyasəti ilə bağlı tarixçilərin irəli sürdüyü fərqli versiyalar bu istiqamətdə araşdırmaların aktuallığını qoruyur.

Lakin mənbələrdə alban hökmdarının böyük fatehlə görüşü məsələsinə yalnız qısa şəkildə toxunulmuş və problemin həlli açıq qalmışdır. Böyük Pliniyin (Naturalis historia, VIII.61.40) və onun əsərinə əlavələr edən Solinisin (Collectanea rerum memorabilium, 15.7) yazılarında e.ə. 327–325-ci illər hadisələri ilə bağlı "Albaniya çarı – rege Albaniae" ifadəsinə rast gəlinməsi həm müasirləri, həm də sonrakı dövr tarixçiləri qarşısında bir sıra suallar ortaya qoymuşdur. Bu kontekstdə e.ə. IV əsrdə Albaniyada dövlət strukturunun mövcudluğu, İsgəndərin Şərq səfərlərində Qafqazın geostrateji əhəmiyyəti, Kaspi qapılarının dəqiq coğrafi mövqeyi, eləcə də Asiya fatehinə Albaniya hökmdarı tərəfindən qeyri-adi ölçü və xüsusiyyətlərə malik itlərin hədiyyə edilib-edilməməsi məsələləri xüsusi maraq doğurur. Məhz itlərin hədiyyə olunması motivi məqaləmizin əsas tədqiqat xəttini təşkil edir. Bu məqsədlə müxtəlif qaynaqlar, həmçinin müasir elmi araşdırmalar nəzərdən keçirilmiş, məlumatlar toplanaraq müqayisəli şəkildə təhlil olunmuşdur.

## 1. Qafqaz Alban iti və Tarixi Xüsusiyyətləri

1984-cü ildə Beynəlxalq Kinologiya Federasiyası (FCI) tərəfindən rəsmi şəkildə tanınan Qafqaz çoban iti (*Caucasian Shepherd*) Qara və Xəzər dənizi arasındakı dağlıq və dağətəyi ərazilərdə – Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan və Rusiya Federasiyasının cənub bölgələrində qədimdən xüsusi seçmə yolu ilə yetişdirilən cinsdir (FCI, 2025; Mazover, 2020). Təbii çoxalma arealının coğrafiyası və yetişdirilmə ənənəsi bu iti özünəməxsus etmiş, həm mənbələrdə, həm də mifik hekayələrdə əksini tapmışdır (Solinus, 1895; Erdal, 2013). Əhalinin gündəlik məişətində itlər mühüm rol oynamış, mülkün və mal-qaranın qorunmasında (Encyclopaedia Iranica, 2025), ovda (Aelian, 1959), hədəfin izlənməsində (Strabo, 2021) və hərbdə düşməni qorxudub ön sıraların nizamını pozmaq üçün istifadə edilmişdir (Aelian, 1959). Arxeoloji materiallar və yazılı mənbələr alban tayfalarının həyatında çoban itlərinin, həmçinin sonradan tanınması rəsmiləşdirilmiş altqrupların – qurdbasar (alabaş), gürcü nagazi və s. – əhəmiyyətini təsdiqləyir.

Strabon (2021) albanların özləri qədər itlərinin də ov həvəsinə malik olduqlarını qeyd edir. Solinus (1895) alban itinin kiçik canlılara xor baxdığını, öküz, ayı, fil və şir kimi heyvanlara hücum etdiyini, kükrəmədən daha dəhşətli səsə malik olduğunu və ovunu yoraraq yerə sərdiyini yazır. Priskian isə "*Yerin təsviri*" əsərində döyüşkən albanların ölkəsində hər hansı vəhşi heyvan üzərində qələbə çala bilən itlərin olduğunu vurğulayır: *"Post fortis Caspia proles. Hinc sunt Albani bellaces Marte feroci, unde canes nati superant genus omne ferarum."* (Priscian, cited in Latişev, 1906, p. 438). Oppian (1928) "genlərində iber qanı axan" itlərdən danışır, Grattius isə med və hirkan itlərini nümunə göstərir (Grattius, 1918; Latişev, 1904). Ov qədim dövrdə yalnız azuqə toplama vasitəsi deyil, həm də əyləncə növü olmuşdur. Albanların saxladıqları itlər bu əyləncənin bir hissəsinə çevrilmişdi (Əliyev & Əliyeva, 1997). Misirdə aşkar edilən "58 çuxur" adlı oyunun oxşar forması Azərbaycanda da qeydə alınmışdır və bu, qədim ov ənənələrinin Qafqazla əlaqəsini göstərir (Abdullayev, 2024).

*Şəkil 1 və 2. Ağdaşdüzü və çapmalıdan tapılmış 58 oyuqlu daş lövhə*
(https://www.cambridge.org/core/journals)







Qobustan qayaüstü rəsmlərində müxtəlif ov səhnələrinə və it təsvirlərinə rast gəlinir (Fərəcova, 2009). 12 nömrəli daşda öküz ovlayan ovçunun iti, 23-cü daşdakı 18-ci şəkildə isə it olduğu ehtimal edilən yırtıcı qeydə alınmışdır (Rüstəmov, 1994).

***Şəkil 3,4,5. Qobustan qayaüstü ov səhnələrində it təsvirləri*** (Fərəcova, 2009, s. 31).







Heyvandarlıqda göstərdiyi faydalardan başqa, it qədim albanların dini dünyagörüşündə də mühüm yer tutmuş, müxtəlif dövrlərdə fərqli məna daşıyıcısına çevrilmişdir. Dyakonov (2008) kadusi, kaspi və albanlarda it kultuna aydınlıq gətirməyə çalışaraq, bu kultun böyük ehtimalla ovçu və maldar tayfalara məxsus olduğunu irəli sürmüşdür. Arxeoloji qazıntılar zamanı aşkar edilən materiallar Azərbaycanda it kultunun izlərini təsdiqləyir. Belə ki, qəbir abidələrində it sümükləri və gildən hazırlanmış it fiqurları üzə çıxarılmışdır. Mütəxəssislər Xınıslıda tapılan iki it skeletini və Qəbələdə aşkarlanan hürən it heykəlciyini şər qüvvələrdən qorunma məqsədilə əlaqələndirmişlər (Osmanov, 2006). Paqan inanclarında itin müdafiə, güc, sədaqət, şəfa və bəd nəzərdən qoruma kimi funksiyaları Albaniyanın mənəvi fikir tarixində də öz əksini tapır. Qafqaz Albaniyası ilə bağlı ilk ümumiləşdirilmiş monoqrafiyanın müəllifi Trever (1959) itin müqəddəsləşdirilməsini *Avesta* ilə əlaqələndirir. İt başlı, quş bədənli senmurvun təsviri (Vəliyev, 2021) Trever tərəfindən xüsusi əhəmiyyətlə şərh olunmuş, Qafqazda yayılan bu kultun simvolikası

barədə yeni yanaşmalara yol açmışdır. Rzayev (1976) isə Bernştamın fikirlərinə istinad edərək əbədi odun qoruyucusu olan itin ilahiləşdirilməsini zərdüştlüklə bağlamışdır.

***Şəkil 6. Üzərində qanadlı it təsviri olan qab*** (https://biblio.ie/book/).



İtlə bağlı mifik inancların qonşu xalqlar arasında geniş yayılması və onların qədim Azərbaycan əhalisinin dünyagörüşünə təsiri danılmazdır və bu təsir müxtəlif qatlarda müşahidə olunur. Şifahi xalq ədəbiyyatında Şərq (Emeneau, 1941), yunan (Kun, 2006), eləcə də Şimali Avrasiya və Avrasiya-Sibir mifoloji ənənələrinə (AtHope, 2025) və qədim sivilizasiyaların ümumi mifoloji təsəvvürlərinə (Joshua, 2019) oxşar nümunələrə rast gəlinir. Dini rituallarda isə şamanist, atəşpərəstlik və xristianlıq izləri müəyyən edilir (Zahide, 2019). Bir çox xalqlarda it qurbanı ayininin uzun müddət şamanlar tərəfindən icra edildiyi, hətta şaman qavalının toxmağının it dərisindən hazırlanmasına xüsusi önəm verildiyi qeyd olunur (Hoppál, 2012). Qədim Türk-Altay və Avrasiya miflərində isə it xəstəlikləri udan və ölümdən sonrakı həyatın keşikçisi olan varlıq kimi təsvir edilirdi.

Kaspi sahillərinin iri itləri ölçüləri və vəhşilikləri ilə şöhrət tapmış, adını çoxluq təşkil etdiyi Hirkan bölgəsindən almışdı. Aelian (1959) əsərində hirkan ov itlərinə olan heyranlığını gizlətmir və onları digər heyvanlarla müqayisə edir. Herodotos (2020) şimal torpaqlarında müqəddəs sayılan qrifonlardan bəhs edir (IV.27). O, həmçinin qurbankəsmə mərasimlərində maqların insan və itlərdən başqa hər cür canlını öldürməsinə icazə verildiyini, Midiyada itlərin insan qədər dəyər daşıdığını vurğulayır: *"Maqlar insan və köpəklərdən başqa hər canlını öldürə bilərlər"* (I.140). Plinius (1847–1848) isə Durisin cəsarətinə görə öz itinə "Hirkan" adını verməsini xatırladır: *"is vero, cui nomen Hyrcani reddit Duris, accenso regis Lysimachi rogo iniecit se flammae,*

*similiterque Hieronis regis”* (VIII.61.143). Əsəd (2014) “Qafqazın on iki sirri” əsərində zəncirlənmiş kralın sədaqətli iti haqqında qədim əfsanəni yada salır.

Xəzərin tarixi adlarından “Hirkan” və “Gürkan” sözlərinin etimologiyası qurd kultu ilə əlaqələndirilmişdir (Əliyev, 1973). Qurd, döyüşçünün arzuladığı vəhşi qəzəbin simvolu hesab olunurdu (Anthony & Brown, 2017). Barbaro (2022) Ağqoyunlu dövlətində hər cümə günü keçirilən qurd oyununa şahid olduğunu yazır. Solinus (1895) isə skif tayfalarının müəyyən dövrlərdə qurda çevrilə bilməsi barədə belə qeyd edir: “*verum Neuri, ut accipimus, statis temporibus in lupos transfigurantur*” (15.1–2). Bakıxanov (1991) bütün şimal xalqlarının qədimdə skif adlandırıldığını bildirir. O, yarımvəhşi tayfalar Qoq və Maqoqları Nuhun oğlu Yafətin soyuna bağlayır, skiflərin Maqoqdan törədiyini və Zu’l-Qərneynin onlara qarşı Dərbənddə sədd tikdirdiyini vurğulayır. Ağayev (2023) isə *Qurani-Kərim*in “əl-Kəhf” (18/93–99) və “əl-Ənbiya” (21/96) surələrində Yəcuc və Məcuclarla bağlı məlumatlara, orta əsr ərəb və fars müəlliflərinin Zu’l-Qərneyni Makedoniyalı İsgəndərlə eyniləşdirməsinə diqqət çəkir. Xristian və müsəlman mətnlərində Yəcuc–Məcuclar şimalda yaşayan, it başlı və insan bədənli varlıqlar kimi təqdim olunurlar (Doufikaar-Aerts, 2011). Bu faktlar Qafqazın şimal ətəklərində yaşayan xalqlarda itlərin çoxluğu, onların mədəni və təsərrüfat həyatındakı rolu, dünyagörüşlərində tazı və qurdların yeri ilə bağlı etnoqrafik məlumatlarla da üst-üstə düşür.

Qurd və ya tazı südü ilə bəslənən qəhrəmanlar və tayfalar haqqında hekayələr bir çox xalqların ədəbi tarixində müxtəlif versiyalarda səslənir (Diodoros, 1963). Antik mənbələrdə adı çəkilən kinamolgilər – it südü içən insanlar – türk dünyasına yad deyildir (Aksoy, 2024; Roux, 1994). Bu süddə bədəni zəhərdən qoruyan antidotların olduğuna inanılırdı. Kirin uşaqlıqda it südü ilə qidalanması haqqında əfsanə isə Herodotosun *Histories* əsərində xatırlanır (Herodotos, 2020).

## 2. Antik Dünyanın Döyüş İtləri

Qədim dövr müəllifləri Midiya və daha sonra Əhəməni ordusunda ov itlərinin döyüş məqsədilə yetişdirilməsi faktlarını qeyd etmişlər. Ümumilikdə, itlərin funksiyalarına görə fərqləndirilməsi Hesiodun *İşlər və günlər* əsərində, eləcə də Homerə aid mətnlərdə müşahidə olunur. Sonrakı antik mənbələrdə izci, ov (Oppian, 1928), çoban, mühafizə, salon və masa itləri (*trapezeis*) kimi növlər haqqında məlumat verilir (Franco, 2012). Antik dünyada müharibə zamanı itlərdən istifadənin geniş yayılması da vurğulanır (Franco, 2012). Herodotos (2020, I.192) Əhəməni dövlətində hökmdar itlərinin bəslənməsi üçün dörd kəndin ayrıldığını qeyd edir.

Numizmatik materiallarda Makedon və İran kralları adına kəsilmiş pullarda ov səhnələrinin yer alması bu ənənənin siyasi və ideoloji əhəmiyyətini göstərir (Gatzke, 2019). Ksenofon isə ovçuluğun insanı həm fiziki, həm də zehni mübarizənin çətinliklərinə alışdırdığını bildirir (Franco, 2012). İstanbul Arxeologiya Muzeyində (370 T) nümayiş olunan Böyük İsgəndərin sarkofaqındakı ov səhnəsi də bu baxımdan xüsusi maraq doğurur. Çox güman ki, əsərin müəllifi Curtius Rufusun Baktriyada keçirilən ov əyləncəsinə dair qeydlərinə əsaslanaraq İran–Makedon əməkdaşlığına işarə etmişdir (Briant, 1996). Ov və mühafizə itlərinin saxlanılması hökmdar ailələrinin simvolik fəaliyyətlərindən biri hesab edilirdi. İsgəndərin heyvanlarla bağlı hekayələrində itlərin mükəmməl sürü qoruyucu, qurdbasan və vəhşi heyvanlara qarşı döyüşmək qabiliyyətinə malik qeyri-adi cinslər olduğu ehtimal olunur (Aelian, 1959). Həm yunan mifologiyasında, həm də hindu inanc sistemində itlərin yeraltı dünyanın qapılarını qoruduqları və axirət aləmi ilə əlaqə qurmaqda vasitəçi olduqları qəbul edilirdi (Anthony & Brown, 2017).

***Şəkil 7. Böyük İskəndər lahiti (sarkofaq)***
***İstanbul Arxeologiya Muzeyi***
(https://share.google)



***Şəkil 8. Trakiya donuz ovu səhnəsi.***
***İstanbul Arxeologiya Muzeyi***
(https://share.google)



Antik mənbələr Makedoniya kralı İsgəndərin döyüş itlərinə xüsusi maraq göstərdiyini bir sıra hadisələrlə təsdiqləyir. Plutarkhos Sotiona istinadən İsgəndərin sevdiyi və doğulduğu gündən əlində böyütdüyü iti Peritasın ölümünə dərin kədər duyduğunu, hətta onun adına bir şəhər saldığını bildirir (Plutarkhos, 2020). Manfredi (2000) Makedonların ovçuluqda həmin güclü və davamlı itlərdən istifadə etdikləri ehtimal olunur (Manfredi, 2000).

### 3. Alban Çarının Böyük İsgəndərə İt Bağışlaması Haqqında Hekayə

İsgəndər Şərq yürüşü zamanı bəzi vilayətləri savaşaraq, bəzilərini isə hakimlərin itaət müraciətini qəbul edərək imperiyasına qatmışdı. Böyük kralın hüzuruna çıxan hər nümayəndə özü ilə onu razı salacaq hədiyyələr gətirirdi. Bu, diplomatiyanın ən mühüm qaydalarından sayılırdı. İsgəndərin katiblərinə istinad edən müasirləri belə görüşlərin birində xüsusi keyfiyyətləri ilə seçilən

itlərin bəxş edilməsindən danışırlar (McCrindle, 1896; Aelian, 1959, VIII.1). Böyük Plininin Alban çarı və onun İsgəndərə it hədiyyəsi hekayəsi də bu çərçivədə maraqlıdır (Plinius, 1847–1848, VIII. 149–150). Bu hekayə daha sonra bir neçə tarixçi tərəfindən təkrarlanmış, tarixşünaslıqda yeni müzakirə mövzusuna səbəb olmuşdur. Belə ki, Solinus da kiçik fərqlə həmin məlumatı çatdırmışdır. O, bu xalqlar (*populos*) arasında yaşayan və mənbələrdə layiqli yerini tapmış itlər haqqında yazır:

"*apud hos populos nati canes feris anteponuntur, frangunt tauros, leones premunt, detinent quicquid obiectum est. Ex quibus causis meruerunt etiam annalibus tradi*" (Solinus, 1895, p. 124).

(Tərcümə: "Bu xalqlar arasında doğulan vəhşi itlərə üstünlük verilir, öküzləri boğazlayırlar, şirləri basdırır-əzirlər, nə varsa zəiflədib məhv edirlər. Bu səbəbdən hətta annallarda qeyd olunmağı haqq edirlər").

Daha sonra eyni kitabda oxuyuruq:

"*Legimus petenti Indiam Alexandro a rege Albaniae duos missos, quorum alter sues sibi et ursos oblatos usque eo sprevit, ut offensus degeneri praeda ignavo similis diu accubaret, quem per ignorantiam velut inertem Alexander extingui imperavit. Alter vero monitu eorum qui donum prosecuti fuerant, leonem missum necavit, mox viso elephanto notabiliter exultans beluam primum astu fatigavit, deinde cum summo spectantium horrore terrae adfixit. Hoc genus canes crescunt ad formam amplissimam terrificis latratibus ultra rugitus insonantes. Haec sunt canibus Albanis reliqua communia universis*" (Solinus, 1895, pp. 124–125).

(Tərcümə: "İsgəndərin Hindistana səfərində iki itin Albaniyanın kralı tərəfindən göndərildiyi qeyd olunur. Onlardan biri önünə gətirilən donuz və ayıları xor gördü və uzun müddət hərəkətsiz qaldı. İsgəndər isə onun tənbəlliyini bacarıqsızlıq kimi qiymətləndirərək öldürülməsini əmr etdi. Digəri isə gətirilən aslanı məğlub etdi, daha sonra fili hiyləgərliklə yordu və izləyənlərin heyrəti qarşısında onu yerə sərdi. Belə itlər böyüdükcə kükrəmədən daha qorxunc hürüşləri ilə seçilirlər. Bunlar alban itlərinin ümumi xüsusiyyətləridir").

Marco Baisin fikrincə, Plinius və Solinusun qeydlərindəki hekayədə albanların başçısını *rex* kimi təqdim etmələrinin müxtəlif bucaqdan təhlili mümkündür (Bais, 2023). O, e.ə. 331-ci il Qavqamela döyüşündə iştirak edən albanları müstəqil dövlətin qoşunu kimi göstərən fərziyyələri əsassız sayır. Bais albanlarda dövlət strukturunun yaranmasını Əhəmənilərin çöküşü ilə e.ə. I əsrin ilk yarısı arasındakı müddətə aid edir və itlərlə bağlı hissənin hindli çara aid olduğunu düşünür

(Bais, 2023). Albanlara öz rəhbərləri başçılıq etmirdi, onlar Midiya satrapı Atropata tabe idilər. Arrianın e.ə. IV əsr hadisələrində vurğuladığı albanlar çox güman ki, Strabonun dediyi 26 tayfadan biri idi və e.ə. I yüzillikdə qonşu tayfaları da özünə tabe edərək konfederasiya yaratmışdılar (Bais, 2023).

Gianluca Traina isə məsələyə daha fərqli nöqteyi-nəzərdən yanaşaraq epizodun İsgəndərin dövründə Alban çarlığının mövcudluğuna işarə olduğunu göstərir. O, İsgəndərin Qafqazdan keçmədiyini, lakin hədiyyənin məhz anonim alban çarı tərəfindən göndərildiyini əlavə edir. Pliniyadan sonra yazan antik müəlliflər hadisənin qəhrəmanı kimi hindli çar Sofitini təqdim etmişlər. Traina Strabonun alban itləri haqqında dediklərinə əsaslanaraq Pliniusun variantını hind kralı haqqında yazılanlardan daha az etibarlı hesab etmir. Tarixçi eyni zamanda latınca *rex* və yunanca *basileus* terminlərini müstəqil krallıq konsepsiyası ilə birbaşa əlaqələndirməyin risklərini vurğulayır; bu terminlərin elastik xarakterini nəzərə alaraq onları Böyük Krala tabe satrapiyaların rəhbərləri kimi başa düşməyin vacibliyini qeyd edir (Traina, 2003).

İmperiya yaratmaq yolunda addımlayan Makedoniya çarına təslim olan, təbəəliyini qəbul edən satraplar arasında bir deyil, bir neçəsinin döyüşkən itlər bəxş etməsi fikri daha həqiqətə yaxın görünür. Böyük İsgəndərin insan dostu olan heyvanlara sevgisi və Şərqin çox danışılan qəribə məxluqlarını görmə marağı qaynaqlarda da təsdiqini tapır (Aelian, 1959, XVI.39). Çox güman ki, yerli hakimlər çarı məmnun edəcək hədiyyələr arasına şanı doğrulanmış və ya şişirdilmiş canlıları daxil etməkdə bir qüsur görməmişlər. Öz növbəsində yunan dünyasına da Əhəməni aristokratiyası arasında hind itləri hədiyyə etmək ənənəsi, itləri döyüşdürmək adəti və it südü ilə bəslənən hökmdar əfsanələri məlum idi (Herodotos, 2020, VII. 187. 1; Justinus, 1857, I. 4). Şərq monarxlarına məxsus xüsusiyyətləri mənimsəyən İsgəndər qeyri-adi ölçülü və böyük şöhrətə malik itlərin verilməsindən yalnız razı qala bilərdi.

Mənbələr Albaniyada hakim çarın adını çəkməsələr də, e.ə. IV əsrin 30-cu illərində əhalinin Atropat Midiyasına tabe müttəfiq tayfalar arasında mövqe tutduğunu göstərən məlumatlar mövcuddur (Arrianos, 1884, III.8). Sonradan bütövlükdə Midiyaya satrap təyin olunan Atropatın Albaniyada müstəqil dövlət quruluşunun olmadığı həmin dövrdə albanların da rəhbəri kimi təqdim olunması, Midiyanın siyasi və sosial həyatı ilə bağlı bir çox məsələlərin birbaşa və ya dolayısı ilə Azərbaycanın şimalına da aid edilməsinə imkan verir (Arrianos, 1884, IV.18). Eranın ilk əsrlərinin latındilli qaynaqlarında Əhəməni və Parfiya satraplıqları *regna*—“krallıq” sözü ilə ifadə olunsa da, mərkəzi siyasətdən asılı vilayət və ya ölkə kimi başa düşülmüşdür (Rawlinson, 1872–1936).

Faktların müqayisəli təhlili Pliniusun “Albaniya çarı” ilə Arrianın “albanlara rəhbərlik edən hakimi”nin eyni şəxs olması ehtimalını da gündəmə gətirir.

### 4. Atropat və Albanlar

Atropat medlərlə, albanlarla yanaşı kadusilər və sakasenlər üzərində hökm hüququna sahib Əhəməni imperiyasının önəmli şəxslərindən biri idi. Diadoxlar arasındakı müharibə və epiqonların hakimiyyəti dönəmində onun Midiyada rəhbər mövqeyini qoruyub saxlaya bilməsi əvvəldən var olan nüfuzunun sübutudur (Justinus, 1857, XII. 4). Fars hökmranlığının süqutu keçmiş satrap – gələcək krallara geniş imkanlar yaratmaqla bərabər, İsgəndərə öz təbəəliklərini təqdimlə bir növ yeni monarxdan asılı, lakin qanuni hakimiyyətlərini təmin etməyə şərait yaratdı.

Makedoniyalı fateh “Media Atropatene” satrapı–kralına etibar etməsə də, onun həm dini mahiyyəti, həm süvari ehtiyatı, həm də diplomatik gedişləri İsgəndəri vadar etdi ki, soylu sinfinin nümayəndəsi olan Atropatı mövqeyində saxlasın (Ammianus, 1872–1936, XXIII. 6. 35–39). Geniş ərazilərə və zənginliklərə sahib maqlara öz qanunları ilə yaşamaq hüququ verilmişdi. Çox güman ki, İsgəndər Midiya dövründən qalma atəşpərəst kahinlərinin idarəçilikdəki rolu və xalq arasındakı böyük nüfuzundan agah idi (Aliev, 1989). Atropatın dini mənafeyi və sosial statusu Suzda diplomatik məqsədlə təşkil edilən toyda xüsusilə sübutunu tapmış, Asiya fatehinin ən yaxın adamı Perdikka ilə qızının izdivacı baş tutmuşdu. Mərasimin ardından İsgəndərin Atropatı öz ölkəsinə göndərməsi böyük kralın vəfatından sonra Kiçik Midiyada satrap taxtının saxlanılması ilə onun nüfuzunu təsdiqləmişdir (Arrianos, 1884, VII. 4. 5; VII.13. 6; Justinus, 1857, XIII. 4). Orosius yazır ki, ölümündən sonra imperiya bölünərkən Atropat Böyük Midiyaya, Perdikka isə Kiçik Midiyaya hakim təyin edilir (Orosius, 1857, III. 23. 8). *İsgəndər romanı*nın 194–199-cu fraqmentlərində isə çarın Midiyaya gəlişindən sonra baş verən hadisələr əks olunur. Burada kralın məbəd tikilməsi haqqında əmrindən, Mosxilos adlı bir satrapdan, onun bənövşəyi cübbəsindən, qızıl tacından və mərasimlərindən, ən əsası isə ruhani səlahiyyətlərindən danışılır (Wolohojian, 1969). Strabon Mosx dağlarının Qafqazda yerləşdiyini, burada qədim məbədin olduğunu, sonralar Farnak və Mitridat tərəfindən qarət edildiyini qeyd edir (Strabo, 2021, XI. 2. 1). Bu faktlardan yola çıxaraq, Arrianın əsərində medlərlə yanaşı albanların da başında duran satrap Atropat ilə Pliniusun İsgəndərə itlər hədiyyə edən Alban reksini eyniləşdirmək həm zaman baxımından, həm də məntiqi cəhətdən doğru hesab edilə bilər (Arrianos, 1884, III. 8. 4; Plinius, 1847–1848, VIII. 149–150).

Lakin İsgəndərin Qara dənizlə Xəzər dənizi arasındakı coğrafiyaya ayaq basmadığını, xüsusilə Azərbaycanın şimalından keçmədiyini qəbul etsək, Ekbatana və digər Midiya şəhərlərində düşərgə salmasını nəzərə alsaq və Atropatla görüşlərinin doğruluğuna inansaq, it hədiyyəsi haqqında olan hekayədə alban çarı kimliyinin Atropat üzərindən sorğulanması nəzərdən qaçırılmamalıdır.

Tarixşünaslıqda alban çarı ilə İsgəndər arasında qarşılaşma ilə bağlı mübahisələrin yaranma səbəbləri həmin görüşü şübhə altına alan faktlarla izah olunur. Plinius nə albanlar haqqında ayrıca bölümdə, nə Atropatena, nə Hindistana aid hissələrdə bu səhnəni xatırlayır, nə "alban çarı" ifadəsini təkrar edir, nə də albanların başında bir çarın olması fikrini təsdiqləyir. O, hətta VII kitabın 40-cı fraqmentində Albaniya çarı ilə bağlı səhnənin təsvirindən əvvəl pələng qanı daşıyan itlər haqqında olan mifi xatırlayarkən onları hind növünə aid edir (Plinius, 1847–1848, VI. 10–11; VII. 2). Ümumiyyətlə isə "İsgəndərin yolu Qafqaz Albaniyasından keçirdimi?" sualı antik dövr tədqiqatlarının qarşısında zaman-zaman qoyulan problemlərdən biri kimi yadda qalır.

***Xəritə 1. İsgəndər imperiyasının sərhədləri*** (https://www.britannica.com/).




## 5. Mənbələrdə Qafqazın Böyük İsgəndər Tərəfindən Fəthi Məsələsi

İsgəndərin Asiya yürüşündə iştirak edən katiblərin qeydlərinə əsasən hazırlanan yol xəritələrində onun Cənubi Qafqazdan keçmədiyi müşahidə olunsa da, müəlliflər israrla Qafqaz adı üzərində dayanmış, hətta xüsusi izah yazmağı da unutmamışlar. Yürüş xəttini bu ərazilərdən salmayan böyük çarın fəth etdiyi ölkələr sırasına bir çox mənbələrdə Qafqazın da daxil olunması mifoloji köklərə dayanan məqsədin nəticəsi kimi təhlil edilə bilər. Solinus Pliniusa əsasən "*Alexander Magnus subegit Asiam, Armeniam, Hiberiam, Albaniam … Taurum Caucasumque*

*transgressus est*” – “Böyük İsgəndər Asiya, Armeniya, İberiya, Albaniyanı fəth etdi... Tavr və Qafqazı keçdi” ifadəsi ilə makedon ordusunun Qafqazdan keçdiyini çatdırır (Solinus, 1895, IX. 19). IV yüzilliyə aid olduğu güman edilən və imperator Konstantin üçün tərtib edilən *Itinerarium Alexandri* əsərində deyilir ki, böyük çar çətinlik sevdiyindən şəxsən Qafqaza yollanır və burada əməyinin qarşılığı olaraq öz adına şəhər saldırır (Valerius, 1817, LXXIV). Vibius Seqvester isə Hind Qafqazının Parfiya və Hirkaniyanın qonşuluğunda olduğunu yazır: “*Caucasus Indiae, Parthis et Hyrcanis iunctus*” (Latişev, 1906, p. 390). Paulus Orosius Qafqazı Hindistanın şimalınadək uzadır və I kitabının 2-ci bölməsində onu kolxlarla albanlar arasında ucalan dağ silsiləsi kimi göstərir, bir qolunun ən ucqar şərqə qədər davam etdiyini deyir. Həmçinin Kaspi qapılarının, Afrikadan Skifiyaya və Hirkaniyaya qədər olan dağların təsvirini verir və burada yaşayan xalqların sayını 34 olaraq açıqlayır (Orosius, 1857, I.2.36; I.2.48). Diodora (Diodoros, 1963, XVII.75–77) və Orosius (1857, III.18.5) əsərlərinə görə, İsgəndər Hirkaniya bölgəsinə girir və Xəzər dənizinə qədər şəhərləri tutur. Onu burada amazonların çariçası Talestris qarşılayır (Curtius, 1809, VI.5). Plutarx isə İsgəndərin Hirkaniyada olarkən açıq dənizin körfəzini gördüyünü, lakin dəqiq məlumat əldə edə bilmədiyini bildirir (Plutarkhos, 2020, Alex. 44). Qədim qaynaqlarda müxtəlif adlarla bəhsi keçən Xəzər dənizinə Makedoniyalı İsgəndərdən sonra Selevk Nikator və Pompey də ərazini tədqiq üçün ekspedisiyalar göndərmişlər.

Seyran Vəliyev Patroklun yerlilər tərəfindən İsgəndər sanılması, hətta böyük çarın adından satrapiyaya göndərilmiş Parmenion, Krater və ya Amintanın da İsgəndər kimi qəbul edilməsi versiyasını mümkün hesab edir (Veliev, 1983). Abbasqulu Bakıxanov mövzuyla əlaqədar olaraq vurğulayır ki, Şərqdə hansısa dövrün mühüm hadisələrini bir simaya aid etməyi xoşlayırlar (Bakihanov, 1991). Halbuki Böyük kralın gözlənilməz ölümü Patroklun Xəzərin öyrənilməsi ilə bağlı tədqiqatına mane olsa da, onun bu arzusu diadoxu Selevk I Nikatorun dövründə reallaşdırılmışdır (Rasulova, 2008). İsgəndərin həyatı və dünya ağalığı yolunda mübarizəsini əks etdirən Psevdo-Kallisthenes və ya *Alexander Romance* (Res gestae Alexandrii / *Konung Alexander*) antik dövr və orta əsr tarixçilərinin əsas qaynaqlarından biri olmuşdur (Pseudo-Callisthenes, 1969). “Bilinməyən müəllif və dağınıq kökə sahib, çoxsaylı dildə sonsuz versiyaları, qeyri-bəlli biçimi olan İsgəndər romanının bir müəmma, real hadisələrin təxəyyül qarışıq təsviri olduğunu deyə bilərik” (Nilsson, 2014). *Alexander Romance* əsərində “Mən Midiya, Armeniya, İberiyanı … tutdum” ifadəsinə izah verən Ken Dowden İsgəndərin heç vaxt Armeniya və İberiyada

olmadığını bildirir (Dowden, 1989). İsgəndər romanının çoxsaylı versiyalarından biri olan *İsgəndərnamə*də Nizami Gəncəvi bizə qədər gəlib çatmayan qaynaqlardan istifadə etdiyini yazır (Veliev, 1983). Nəzərə alsaq ki, Nizaminin yaşadığı dövrdə Azərbaycan sərhədləri daha geniş əraziləri, o cümlədən keçmiş Atropatena torpaqlarını da əhatə edirdi, böyük fatehin Qafqaz səfərini təxəyyül məhsulu deyil, gerçək hadisələrə söykənən fakt kimi qəbul etmək olar (Budge, 1889). Azərbaycan tarixinin farsdilli qaynaqlarında Səlcuqlu tarixçisi Ravəndinin tarixi hadisələri təsirli göstərmək üçün mətnlərin arasında Nizaminin əsərlərindən nümunələr verdiyi qeyd olunur (Bayramlı & Quliyev, 2023). Bakıxanov, Strabonun məlumatlarını etibarlı hesab edərək çarın Qafqazdan keçməsini "şəhri-Yunan" qeydləri ilə əsaslandırmağa və burada hansısa İsgəndəriyyənin mövcudluğunu sübuta yetirməyə cəhd göstərmişdir (Strabo, 2021, XI.13.6). Çox güman ki, yerli əhali də makedoniyalı hökmdarın Qafqazda vaxt keçirdiyinə inanmışdır; bu inamın izləri avropalı səyyah Josafat Barbaronun qeydlərində də əksini tapır: "İsgəndər tərəfindən salınmış Dərbənd şəhərinə çatdıq" (Barbaro, 2022).

***Xəritə 2. İsgəndər imperiyasının sərhədləri*** (https://en.wikivoyage.org)**.**




İsgəndər Romanının Suriya versiyasında Makedon ordusunun Azərbaycan da daxil olmaqla keçmiş Əhəməni imperiyasının şimal sərhədlərinə daxil olduğu, bir çox ərazilərdən keçib böyük dağın darvazasında düşərgə qurduğu və camaat arasında sülh müjdələrinin yayıldığı nəql edilir (Budge, 1889). İsgəndər yerli xalq arasından hüzuruna gələn 300 yaşlı adamla söhbət edir, onları tanımaq üçün suallar verir. Ağsaqqallar bu torpaqların Ahşerinin soyundan gələn Əhəməni şahı Tubarlaka məxsus olduğunu xəbər verirlər. Qafqazın Hindistana qədər uzandığını öyrəndikdən sonra İsgəndər onların gördüyü ən hündür və dəhşətli dağ olduğunu bildirərək heyrətini gizlətmir. İsgəndərin "dağın içindəkilər kimlərdir" sualına cavab olaraq "başlarında Yafətin oğlanlarının durduğu yerli xalqdan olan hunlardır" deyirlər (Budge, 1889). Onların görünüşü, geyimi və dili barədə maraqlanan Makedoniyalı çara əksəriyyətinin gözlərinin mavi olduğu (Solinus, 1895, XVI), kişilərindən daha döyüşkən olan qadınlarının bir döşlü olduqları və dəridən paltar geyindikləri

bildirilir (Strabo, 2021, XI.4.1; XI.4.8; XI.5.6). Onlar insan və heyvan qanı içər, şəhərlər uğrunda döyüşməz, qalalara hücum etməz, özlərini müdafiəyə qalxmaz, amma qapılarından keçən hər kəsə mülayim yanaşardılar. Əsən küləkdən daha sürətli, sehrbaz olduqları və müharibə xəbəri yayıldıqda bütün dünyanı geridə buraxaraq arabaları, qılınc və nizələri ilə döyüşə atıldıqları bildirilir. Hərəsinin iki-üç atı olar və döyüşə gedərkən heç kimə rəhm etməz, hətta hamilə qadını bətnindəki uşaqla birlikdə yandırardılar. Hunlar bütün düşmənlərdən daha vəhşi sayılırdılar. Yaşlıların söylədiyinə görə onların uzaq qonşuluqlarında amardlar, bir qədər aralıda isə it-adamlar yaşayırdı. Hunların tez-tez basqınlarından şikayət edən elçilərə İsgəndər dar cığırdan hücumların qarşısını almaq üçün dəmir qapı-sədd tikmək vədi verir. Kralın əmri və çox sayda insanın əməyi ilə Şuşan qalasındakı kimi qapı hazırlanır (Budge, 1889). Sonrakı dövr gürcü qaynaqlarında da İsgəndərin Qafqaza yürüşü ilə bağlı məlumatlara rast gəlinir (Mroveli, 1979). Albaniyanın antik dövr qərb torpaqlarını tədqiq etmiş E. Bəkirovaya görə, orta əsr gürcü mənbələrində təsvir olunan İsgəndərin buntürklərlə mübarizəsi və daha sonra Sarkine şəhərini ələ keçirməsi anaxronizm sayılsa da, arxeoloji və antropoloji materiallar həmin dövrün şərq Gürcüstanında iber olmayan etnosların yaşadığını təsdiqləyir (Bəkirova, 2021). Voroşil (1993, p. 82) yazır ki, e.ə. IV yüzilliyin 30-cu illərində makedoniyalılar Qafqazdan keçərkən buntürklərin güclü müqaviməti ilə qarşılaşmışdılar. Ərəb və farsdilli mətnlərdə isə türklərin Qafqazın şimal ətəklərində yaşayan qoqlardan (Yəcuc), dağlıların isə maqoqlardan (Məcuc) törədikləri və İsgəndərin onların qarşısını almaq üçün iki dəniz arasında sədd tikdirdiyi rəvayətləri yer alır (Bakihanov, 1991; Agayev, 2023; Seyed-Gohrab, 2011).

Qaynaqların yazıldığı dövrlərdə Qafqazın Hindistana qədər uzandığına, hətta Taurusun ondan qaynaqlandığına inanılırdı. Curtius Qafqazı Taurusun bir zənciri kimi göstərərək ordunun 17 günə buranı aşdığını yazır: "*XVII dierum spatio Caucasum superavit exercitus*" (Curtius, 1809, VII.3.22). Bu məlumat digər mənbələrdə də təkrarlanır. İsgəndər bəzilərinin Paropanisus (indiki Hindikuş) adlandırdığı Qafqaz yaxınlarında düşərgə salır və 16 gündə bu dağların bir tərəfindən digər tərəfinə keçir (Diodoros, 1963, XVII.83.1). V əsrin əvvəllərində yaşamış Orosius İsgəndərin Qafqaz xalqlarını tabe etdikdən sonra Tanais üzərində İsgəndəriyyə şəhərinin salınmasından yazır (Orosius, 1857, III.18.7). Arrian böyük çarın Baktriyadan Hindistana doğru irəliləyərək 10 gündə Qafqazı keçdiyini və ilk dəfə gəldiyində saldığı şəhərə çatdığını bildirir (Arrianos, 1884, IV.22). O, həmçinin V kitabın 5-ci bölməsində makedoniyalıların öz krallarının şöhrətini artırmaq üçün

"Qafqaz" adını verdikləri Paropamisus dağlarını Taurusla birləşdirdiklərini və bundan sonra həmin dağları Qafqaz adlandıracağını qeyd edir (Arrianos, 1884, V.5). Pierre Herman Eggermont isə Parapamisadae dağı və yerləşdiyi satraplığın sərhədlərini göstərərək, adın mənşəyini açıqlamış və onu Hindikuşla eyniləşdirmişdir (Pierre, 1975).

Antik müəlliflərin Paropamisus dağlarını israrla Qafqaz adlandırmalarının səbəbini də özləri izah edirlər. Arrian bildirir ki, ilahi güclə bağlı bütün hekayələr İsgəndəri maraqlandırır və sevindirirdi. Makedoniyalılar Parapamisida torpaqlarında bir mağara gördülər və yerlilər arasında yayılan əfsanəyə əsaslanaraq buranı Prometeyin zəncirləndiyi və Heraklın onu xilas etdiyi yerlə eyniləşdirdilər. Eratosfenə görə yunanların bu rəvayətlərdən yola çıxaraq Qafqaz adını Euksin (Qara dəniz) dənizindən Hindistanın şimalındakı dağlara köçürmələri əslində İsgəndərin şöhrətini artırmaq məqsədilə idi. Eratosfen həm bunu anladığını, həm də Dionisi haqqında deyilənlərə inanmadığını xüsusi vurğulayırdı (Arrianos, 1884, V.3). Qədim əfsanələri dinləməyi sevən İsgəndər Dionisi kimi dünyanı səyahət edir, Herakl kimi geyinir, ən keçilməz qayalara İsgəndəriyyə adlı şəhərlər saldırır. Hadisələrin baş verdiyi ərazilərdə aparılan arxeoloji qazıntıların nəticələri də bu İsgəndəriyyələrin mövcudluğu haqqında danışılanları təsdiqləyir. Hindistanın təsvirində Kurtiusun "Qafqazdan çoxlu çaylar axır, bunların ən soyuğu Hind çayıdır" sözləri (Curtius, 1809, IX.9) söhbətin indiki Hindikuş dağlarından getdiyini anlamağa əsas verir. *The History of Ancient Iran* əsərində İsgəndərin yaratdığı yeni yaşayış məntəqələrinin quruluşu müzakirə edilərək onların şəhər yoxsa qala tipinə uyğunluğu sorğulanır (Frye, 1984). Müəllif yunanların əvvəlcə qarnizon saxlamaq üçün qalalar tikdiklərini, sonradan onların şəhərə—*polisə* çevrildiyini vurğulayır. Mənbələr Qafqaz yaxınlığında bir şəhərin salınmasını qəbul etsələr də, son dövr tədqiqatları bu şəhəri indiki Kabilin şimalı ilə eyniləşdirirlər (Arrianos, 1884, III.28.4; Curtius, 1809, VII.3.23). Strabon məsələyə tənqidi yanaşaraq, kralı vəsf etmək məqsədilə yayılmış hekayələrin hər kəs tərəfindən qəbul edilmədiyini bildirir. Tarixçi İsgəndərin şanını bütün mifik qəhrəmanlardan üstün göstərmək üçün Qafqazı Kolxis və Euksin ətrafındakı dağlardan Hind dağlarına və Şərq dənizinə köçürməyin, Prometeyin zəncirlənmə səhnəsini isə aralarında minlərlə stadi məsafə olmasına baxmayaraq Hindistana yerləşdirməyin həqiqətdən uzaq olduğunu yazır (Strabo, 2021, XI.5.5). Strabon "Qafqaz həmin hekayə müəlliflərinin zamanında şərqə doğru bilinən ən uzaq yer idi... Yazarlar fatehə lütf etdiklərini düşünərək Qafqazın adı və şöhrətini Hindistana qədər uzatdılar" deyərək bu yanıltmaları rədd edir. Ardınca isə Qafqazın coğrafi

təsvirini verərək tarixi hadisələrin məkanla uyğunluğunu göstərməyə çalışır (Strabo, 2021, XI.2.15–16).

Antik müəlliflərdən bəzilərində də eyni qəbildən narazılıqlara rast gəlinir. Kurtius "*Equidem plura transcribo quam credo: nam nec affirmare sustineo de quibus dubito, nec subducere quae accepi*" (Curtius, 1809, IX.1.34) sözləri ilə qeydlərinə ehtiyatla yanaşdığını bildirir. Bu, tədqiqatçılara qədim mənbələrdəki fikirlərə tənqidi münasibət bəsləmək imkanı verir.

Diodoros Hindistana səfər edən Dionis və Herakl haqqında əfsanələrin filosoflar tərəfindən yayılmasını önə çəkir. Filosofların bir hissəsini təşkil edən sofistlər də bu təsirin daşıyıcıları idi. Aristobulos Taksilada iki brahman sofist gördüyünü, Onesikritos isə İsgəndərin onu sofistlərin yanına göndərdiyini yazır. Persiyaya qədər fatehə yoldaşlıq edən Kalanos haqqında əhvalat demək olar ki, bütün İsgəndər mətnlərində yer alır. Pierre Briant Kalanosu yunanların sofist adlandırdığı ən məşhur *sage*, yəni kahin hesab edir (Briant, 2005). Strabon kralla ittifaqda olan müdrikləri İran sarayının maqları ilə müqayisə edərək onların səlahiyyət və fəaliyyətlərindəki oxşarlıqları göstərir və hindli sofistləri Əhəməni maqları ilə eyniləşdirir (Strabo, 2021, XVI.2.39).

Şəhərətrafı açıq ərazilərdə fəlsəfi müzakirələr aparan, dünya nemətlərindən üz döndərən, nəfs üzərində hakimiyyətləri ilə seçilən sofistlər hər mövzuda sərbəst fikir söyləyə bilirdilər. İsgəndər hind racəsi Ambhinin (Diodorosda *Mophis*, Arrianda *Omphis*) təbəəliyində olan bu müdriklərdən birinin onu müşayiət etməsini istəyirdi. Brahmanlar isə inancları səbəbilə uzun səfərə çıxa bilməyəcəklərini söylədilər. Nəticədə fateh qonşu racələrin idarəsindəki torpaqlara yönəldi (Lendering, 2020). Mənbəyə görə "Makedoniya ordusu Sofit olaraq tanınan racənin yaşadığı şəhərə qısa zamanda çatdı. Hindlinin Asiya kralından asılılığı qəbul və ona bir ov iti hədiyyə etməsinin ardınca Fegeusla qarşılaşana qədər irəliləməyə davam etdi" (Lendering, 2020).

***Şəkil 9. Antik Dövrdən Qalmış Gümüş və Qızıl Yaldızlı Mərasim Qabı*** **(**https://commons.m).



Strabon Kateya və Sofitin ölkəsinin Hidaspes və Akesines çayları arasında yerləşdiyini, burada gözəl atlar və itlərin, çox sayda mineral duz dağlarının, bir az aralıda isə qızıl və gümüş mədənlərinin olduğunu təsvir edir; digər müəlliflərə əsaslanaraq İsgəndərin Sofitdən xüsusi keyfiyyətlərə malik 150 it aldığını, onlardan dördünün gücünün sınaqdan keçirildiyini, aslanla bərabər qüvvədə döyüşən itlərdən birinin ayağının kəsilməsi əmrini böyük kralın etirazla qarşıladığını, Sofitin isə əvəzində dörd it də vəd etdiyini bildirir (Strabo, 2021, XV.1.30–31).

Diodoros bu hadisəni cüzi fərqlə nəql edir: Sofitin hakimiyyəti altındakı şəhərlər yaxşı idarə olunması və kralın şəxsi keyfiyyətləri ilə seçilir; paytaxtdan təntənəli çıxış, ölkəsini təslim etmə və fatehin iltifatı sayəsində hakimiyyətin geri alınması epizodları verilərək, bir neçə gün ordunu qonaq edən Sofitin İsgəndərə cəsarəti ilə fərqlənən 150 it bağışlaması və onlardan dördünün gücünün yoxlanması qeyd olunur (Diodorus, 1963, XVII.91–93; Grattius, 1918). Plinius isə yerlilərin yaydığı əfsanəni çatdırır: guya dişilər meşəyə bağlanır, şirlərlə cütləşdirilir, ilk iki balanı əhliləşdirmək çətin olduğundan buraxır, üçüncü balanı isə götürüb böyüdürlər (Pliny, 1855, VIII.61). Kursi Ruf hadisəni belə təsvir edir: “Hinc in regnum Sopithis perventum est… Nobiles ad venandum canes in ea regione sunt: latratu abstinere dicuntur, cum viderunt feram, leonibus maxime infesti” (Curtius Rufus, 1904, IX.1.24–32). Eyni motiv Oppianda da yer alır (Oppian, 1928). Plutarx bu konkret əhvalatı xatırlatmasa da, makedonların Hindistanda qarşılaşdıqları gimnosofistlərdən, Taksilesin müdrik hökmdar olmasından və Kalanosun İsgəndərin hüzuruna gətirilməsindən danışır (Plutarch, 1919, 59.1; 65.3). Arrianos Meqasfenin məlumatlarına

söykənərək gimnosofistlərin başçısı Dandamisi və onların Taksilada olduqlarını qeyd edir (Arrian, 1906, VII.2). Taksiles hökmdarı Mophis/Omphis İsgəndərin təbəəliyini qəbul etməklə krallığını geri alır; fateh onun adını Taksilesə çevirir (Diodorus, 1963, XVII.86.7; Curtius Rufus, 1904, VIII.12). Elian hindlilərin İsgəndərə xüsusi yetişdirilmiş itlər verdiyini və güclərinin vəhşi heyvanlarla sınaqdan keçirildiyini bir neçə yerdə qeyd edir (Aelian, 1958, VIII.1). Nümizmatik baxımdan E. J. Rapson "Sophytes" adının (sanskritcə Saubbuti formasına uyğunlaşdırılaraq) Pəncab ətrafında hökm sürən hökmdarla əlaqələndirildiyini, həmin bölgədən tapılan sikkələr əsasında göstərir (Rapson, 1955). Frank Lee Holt e.ə. 315–305 illəri arasında Sofit, Vaxşuvar və digər müstəqil satraplar adına zərb edilən sikkələri təhlil edərək onların Əhəməni ənənələrinin davamını ehtiva etdiyini vurğulayır; eyni zamanda Sofitin Stasanor və ya qonşu vilayətlərdən birinin müstəqil hakimi olması ehtimalının dəlillərinin zəif olduğunu bildirir (Holt, 1989). Strabon hind krallarının xitabının çox vaxt idarə etdikləri şəhərlə eyniləşdirildiyini, Parfiyada isə hökmdarların ümumi "Arşak" titulunu daşıdıqlarını xatırladır; bu müşahidə "Sofites"in ad olmaqdan çox titul kimi işlənməsi ehtimalını gücləndirir (Strabo, 2021, XV.1.36). Sofit/Sophytos sikkələrində görünən motivlərin (məsələn, xoruz, it, zərdüşti–mitraik işarələr) mənşə və ideologiyaya işarə edən ikonografiyası barədə ən son müzakirələr də mövcuddur (Hartel, 2024).

***Şəkil 10. Sofit sikkələri*** (https://en.wikipedia.org).



Brahmanların yaşayış tərzi ilə maraqlanan İsgəndər əvvəlcə öz katibi Oneskriti onların yanına göndərir, daha sonra rəhbərləri Dindimusla məktublaşır (Arrian, 1906, VII.2; Strabo, 2021, XV.1.61). Elmin gərəksiz mübahisələrini alçaldan Brahmanların xoşbəxt ölkəsinin kralı Dindimus makedoniyalını acgözlükdə ittiham edir, özlərini var olan insanların ən yaxşısı kimi təqdim edir. İsgəndər bu cavabı yoxsulların qısqanclığı kimi dəyərləndirir, ölkələrini isə həbsxanaya bənzədir. İsveç orta əsr poeziyasının ən erkən nəşr olunan və ən monumental romanı sayılan Konung Alexander da digər İsgəndərnamələr kimi mənbələrə söykənib təxəyyüllə zənginləşdirilən əsərdir

(Blanck, 1929). Sofistlərin təsvir edilən yaşam tərzi Strabonun albanlar haqqında dedikləri ilə qismən oxşarlıq təşkil edir. Onlar da saf, təmiz, təbii həyat yaşadıqlarını, heç bir günah işlətmədiklərini, qətiyyətlə gərəkli olmayan əşyalara sahib olmaq istəmədiklərini, heç bir bütə sitayiş etmədiklərini iddia edirlər. Torpağı nə əkir, nə şumlayır, nə heyvan əhliləşdirirlər. Zəngin torpağın hazır verdiyi məhsullarla kifayətlənirlər. Az yediklərinə görə heç vaxt halsız və tənbəl olmurlar. Nadirən xəstələnirlər. Yalan danışmaz, son dərəcə iffətli ömür sürərlər. Təbiətdən zövq alar, tanrının onları yaratdığı kimi yaşar, elmi mövzulara xor baxarlar. Həyatını fəlsəfəyə həsr etmiş brahmanlar (oksidrakalar) mağara və ya daxmalarda yaşadıqları, çılpaq gəzdikləri və azad iradə ilə yaşamağı seçdikləri üçün yunanlara maraqlı gəlirdilər.

Porusla müharibəni sonlandırdıqdan sonra İsgəndər yerlilərin "Mithras və Mao" adlandırdıqları Günəş və Ay məbədlərini ziyarət edir (Budge, 1889). Müdrik insanların yaşadığı ölkədə kral gözəlliyi ilə seçilirdi. Orada xarici görünüş taxt üçün əsas meyar sayılırdı. Sofit İsgəndərin yürüşünə qədər ölkəsini müstəqil idarə etmiş hind çarlarından biri kimi əsasən İsgəndərə bağışladığı itlərlə tarixi mənbələrdə bəhs olunmasına səbəb olmuşdu. Beləliklə, antik mənbələrdə Makedoniyalı İsgəndərə heyrətamiz böyüklükdə və xüsusi keyfiyyətlərə sahib itlər hədiyyə edən çar haqqında deyilənləri ümumiləşdirsək, bu hökmdarın əslində Sofites titullu hindli kral olması ehtimalı mümkündür.

**Nəticə**

Qafqaz Albaniyasının e.ə. IV əsr tarixinə dair məlumatlar əsasən yunan və Roma qaynaqlarında coğrafiyanın həmin dönəm siyasi hadisələri zəminində yazılan qeydlərdən əldə edilir. Arxeoloji materiallar, maddi və mənəvi mədəniyyət nümunələri, həmçinin orta əsrlərin ədəbi əsərləri qədim dövrümüzə işıq tutmağa, müəyyən fikirlərin formalaşmasına, elmi nəzəriyyələrin yaranmasına kömək edir. Yarımköçəri tayfalardan miras qalmış yaylaq-qışlaq maldarlığı Azərbaycan əhalisinin ənənəvi məşğuliyyətlərindən hesab olunur. Bu səbəbdəndir ki, Xınalıq yaşayış məskəni ilə yanaşı, köç yolu mədəniyyətimiz 2023-cü ildə UNESCO-nun Ümumdünya İrs Siyahısına salınmışdır. Tarixən nəinki heyvandarlığın, hətta məişətin funksional bir hissəsinə çevrilmiş çoban itləri öz layiqli qiymətini almışdır. Təxminən iki min il öncəsinə aid mənbələrdə izci, qoruyucu, ovçu, döyüşçü, şəfaçı, insan dostu olan Qafqaz itlərindən yazılması onlara göstərilən dəyərin nəticəsi olmuşdur. Qədimdə albanların yetişdirdiyi xüsusi cins itlərin şöhrəti Qərb dünyasında maraq yaratmış, antik müəlliflərin əsərlərində bəhsi keçmişdir. Hökmdarlara

göndərilən hədiyyələr arasında gücü təmsil edən bu canlıların yer alması özünəməxsus məna ifadə etmişdir.

İsgəndərin həyatını ələ almış müasirlərinin demək olar ki, hamısı əsərlərində ona bağışlanan böyük ölçülərə malik itlərin hekayəsini xatırlatmışlar. Plinius və Solinus hədiyyənin Albaniya çarı tərəfindən verildiyini yazsalar da (Plinius, 1855, VIII.149-150; Solinus, 1895, XV.16), çarın adına, kimliyinə toxunmamışlar. Onlar hadisəni İsgəndərin Hindistan səfəri ərəfəsinə bağlamış, kitabın albanlar haqqında məlumatlar olan bölümündə başqa heç bir işarə və ya əlamət paylaşmamışlar. İtlərin Asiya fatehinə təqdimi və vəhşi heyvanlarla döyüş səhnəsini isə Diodor (1957, XVII.91-93), Strabon (1924, XV.1.30-31), Kurtius Rufus (1946, IX.1.24-32) və Yustin (1997, XII.8.10) kral Sofitlə əlaqələndirmiş, hind itlərinin döyüşkən təbiəti, onlar barəsində yayılan mifi təkrarlamışlar. Elian (1864, VIII.1) həmin epizodu adını çəkmədiyi hindli hakimə aid etmiş, Plutarx (1919, Alex. 59.1) və Arrian (1962, Anab. VII.2) isə hekayədən yan keçmişlər.

Sadalanan bütün faktlardan yola çıxaraq, e.ə. IV yüzilliyin 30-cu illərində alban tayfalarına rəhbərlik edən satrapın Makedoniyalı İsgəndərə qeyri-adi xüsusiyyətlərə malik itlər bağışlamasını istisna etməsək də, qaynaqlarda bəhsi keçən hekayənin əsas qəhrəmanının məhz hindli çar olması versiyası da həqiqətə çox yaxın görünür. Mövzuya tədqiqatçılar tərəfindən dəfələrlə toxunulmasına baxmayaraq, Qafqaz Albaniyasına dair hər nüansın dərin və geniş şəkildə incələnməsi tarixin əhəmiyyətli səhifələrinin öyrənilməsinə yol açır.

"*Heç kim bizi keçmiş yazıçıların əsərlərini köçürdüyümüzə və artıq tez-tez bəhs edilən bir mövzuda yazmağı öhdəmizə götürdüyümüzə görə qınaya bilməz. Bizim fikrimizcə, onlar bəzi mövzuları mükəmməl şəkildə ələ almış olsalar da, digərlərində hələ tamamlanmalı çox suallar qoyublar və əgər onların məlumatlarına cüzi dərəcədə belə əlavələr edə bilsək, öz fəaliyyətimizdə haqlı olacağıq*" (Strabon, 1903, I.2.1).

## Ədəbiyyat

Abdullayev, R. (2024). Herding with the hounds: The game of 58 holes in the Absheron peninsula. *European Journal of Archaeology*, 1–20.

Agayev, R. (2023). Kur'an'da bazi yer adları ve Azerbaycan. In *Proceedings of the 2nd International Mediterranean Congress* (pp. 44–51).

Aelian. (1959). *De natura animis* (A. F. Scholfield, Trans.). Harvard University Press.

Aksoy, H. (2024). Erken dönem Türk mitolojisinde kurt kültü. In *Mitoloji–Anadolu mitolojisi* (pp. 255–269). Mardin Artuklu Üniversitesi Yayınları.

Aliev, İ. G. (1989). *Oçerk istorii Atropatenı*. Azerneşr. (In Russian).

Aliev, K. G. (1986). *Antiçnıe istoçniki po istorii Azerbaydjana*. Elm. (In Russian).

Anthony, D., & Brown, R. (2017). The dogs of war: A Bronze Age initiation ritual in the Russian steppes. *Journal of Anthropological Archaeology, 48*, 134–148.

Arrianos. (1884). *Aleksandrou anabasis* (E. J. Chinnock, Trans.). Hodder and Stoughton.

AtHope, D. M. (2025, April 24). *The mytheme of Ancient North Eurasian sacred-dog belief and similar motifs are found in Indo-European, Native American, and Siberian comparative mythology*. Academia. https://www.academia.edu/123673285/...

Bais, M. (2023). Caucasian Albania in Greek and Latin sources. In *Caucasian Albania: International handbook* (pp. 3–33). De Gruyter Mouton.

Bakihanov, A. K. (1991). *Gulistani-İrem*. Elm.

Barbaro, G. (2022). *Doğuya yolculuk* (A. Güler, Trans.). Kronik Kitap.

Bayramlı, Z., & Quliyev, B. (2023). *Azərbaycan tarixinin farsdilli qaynaqları* (Vol. 1). Füyuzat.

Bəkirova, E. A. (2021). *Albaniyanın qərb torpaqları (Antik dövr)*. İdeal-Print MMC.

Blanck, A. (1929). Konung Alexander, Bo Jonsson Grip och Albrekt av Mecklenburg. *Samlaren, 10*, 60–65.

Briant, P. (1996). *Alexander the Great: Man of action, man of spirit* (H. N. Abrams, Trans.). Harry N. Abrams.

Briant, P. (2005). Alexander the Great and the Enlightenment: William Robertson (1721–1793), the empire and the road to India. *Cromohs, 10*, 1–9.

Budge, E. A. W. (1889). *The history of Alexander the Great, being the Syriac version of the Pseudo-Callisthenes*. Cambridge University Press.

Curtius, Q. (1809). *History of the life and reign of Alexander the Great*. Strand.

Diodoros. (1963). *Library of history* (C. H. Oldfather, Trans.). Harvard University Press.

Doufikaar-Aerts, F. C. (2011). Dogfaces, snake-tongues and the wall against Gog and Magog. In *Embodiments of evil: Gog and Magog* (pp. 37–49). Leiden University Press.

Dowden, K. (1989). Pseudo-Callisthenes, Alexander romance. In *Collected ancient Greek novels*. University of California Press.

Dyakonov, I. M. (2008). *İstoriya Midii*. Filologiçeskiy fakultet SpbQU. (In Russian).

Əliyev, K. H., & Əliyeva, F. K. (1997). *Azərbaycan antik dövrdə*. Azərbaycan Dövlət Nəşriyyatı.

Əliyev, Ş. (1973). *Xəzər dənizi tarixi xəritələrdə*. Bakı.

Emeneau, M. B. (1941). The faithful dog as security for a debt: A companion to the Brahman and the mongoose story-type. *Journal of the American Oriental Society, 61*(1), 1–17.

Əsəd, B. (2014). *Qafqazın on iki sirri*. Qanun Nəşriyyatı.
Fərəcova, M. (2009). *Azərbaycan qayaüstü rəsmləri*. Aspoliqraf.

Franco, C. (2012). Yunanlar ve hayvanlar. In E. Umberto (Ed.), *Antik Yunan* (pp. 299–312). Alfa Yayınları.

Frye, R. (1984). *The history of ancient Iran*. C. H. Beck'sche Verlagsbuchhandlung.

Gatzke, A. F. (2019). Mithridates VI Eupator and Persian kingship. *The Ancient History Bulletin, 33*(1–2), 60–80.

Grattius. (1918). *Cynegeticon* (P. J. Enk, Trans.). Zutphaniae.

Herodotos. (2020). *Histories* (M. Ökmen, Trans.). Remzi Kitabevi.

Holt, F. L. (1989). *Alexander the Great and Bactria: The formation of a Greek frontier in Central Asia*. Brill.

Hoppál, M. (2012). *Avrasya'da Şamanlar* (B. Bayram & Ç. Çapraz, Trans.). Yapı Kredi Yayınları.

Joshua, J. M. (2019). *Dogs in the ancient world*. World History Encyclopedia. https://www.worldhistory.org/article/184/dogs-in-the-ancient-world/

Kun, N. A. (2006). *Leqendı i mifı Qretsii*. Firma STD. (In Russian).

Latişev, V. V. (1904). *İzvestiya drevnix pisateley qreçeskix i latinskix o Skifii i Kavkaze* (Vol. II). Tip. Imperatorskoy Akademii Nauk. (In Russian).

Latişev, V. V. (1906). *İzvestiya drevnix pisateley qreçeskix i latinskix o Skifii i Kavkaze* (Vol. II). Tip. Imperatorskoy Akademii Nauk. (In Russian).

Lendering, J. (2020). *Büyük İskender* (B. Şengir, Trans.). Kronik Kitap.

Manfredi, V. M. (2000). *Büyük İsgender. Makedonyadan Anadoluya* (E. Cendey, Trans.). Can Yayınları.

Mroveli. (1979). *Jizn Kartliyskix tsarey* (S. G. Kauxçişvili, Trans.). Nauka. (In Georgian).

Nilsson, I. (2014). *Konung Alexander.* Svenskt översättarlexikon.

Oppian. (1928). *Cynegetica* (A. W. Mair & D. Litt, Trans.). W. Heinemann.

Orosius. (1857). *Historiarum libri septem*. Ernesti Lambeccii.

Pierre, H. (1975). *Alexander's campaigns in Sind and Baluchistan and the siege of the Brahmin town of Harmatelia*. Leuven University Press.

Plinius. (1847–1848). *Naturalis historia* (F. Holland, Trans.). Wernerian Club.

Plutarkhos. (2020). *Alexandros* (I. Çokona, Trans.). Türkiye İş Bankası Kültür Yayınları.

Rasulova, M. M. (2008). *Torgovo-ekonomiçeskie i kulturnıe svyazi Kavkazskoy Albanii s antiçnım i ellinistiçeskim mirom: IV vek do n.e. – III vek n.e.* Murtadjim. (In Russian).

Rawlinson, G. (1872–1936). *Geography, history and antiquities of Parthia: The sixth great oriental monarch*. Longmans, Green and Co.

Roux, J. P. (1994). *Türklerin ve Moğolların eski dini* (A. Kazancıgil, Trans.). Dergah Yayınları.

Rüstəmov, C. (1994). *Qobustan dünyası*. Azərnəşr.

Rzaev, N. İ. (1976). *İskusstvo Kavkazskoy Albanii IV v. do n.e. – VII v. n.e.* Elm. (In Russian).

Seyed-Gohrab, A. A. (2011). Unfathomable evil: The presentation of Gog and Magog in Persian literature. In *Embodiments of evil: Gog and Magog* (pp. 91–110). Leiden University Press. (In Persian).

Solinus. (1895). *Collectanea rerum memorabilium* (Th. Mommsen, Trans.). Berolini Apud Weidmannos.

Strabo. (2021). *The geography of Strabo*. Gece Yayınları.

McCrindle, J. W. (Trans.). (1896). *The invasion of India by Alexander the Great as described by Arrian, Curtius, Diodoros, Plutarch and Justin*. Archibald Constable and Company.

Pseudo-Callisthenes. (1969). *The romance of Alexander the Great* (A. M. Wolohojian, Trans.). Columbia University Press.

Traina, G. (2003). Due note sull’identità politica nel Caucaso antico. In *Gli stati territoriali nel mondo antico*. Vita e Pensiero Universita.

Trever, K. V. (1959). *Oçerki po istirii i kulture Kavkazskoy Albanii IV v. do n.e. – VII v. n.e.* İzd. AN SSSR. (In Russian).

Valerius. (1817). *Itinerarium Alexandri*. Regis Typis.

Veliev, S. S. (1983). *Drevniy, drevniy Azerbaydjan (İstoriko-qeoqrafiçeskie oçerki)*. Gyanclik. (In Russian).

Vəliyev, E. (2021). Qafqaz Albaniyası ərazisində III–V əsrlərə aid olan maddi-mədəniyyət nümunələrində zərdüştlüyün izləri. *Qafqaz Albaniyasının etno-mədəni irsi, 2*, 107–116.

Voroşil, Q. (1993). *Qafqaz Albaniyası*. Öyrətmən.

Zahide, A. (2019). Orta Asya'da Cengizli hanedanların devletleşme sürecinde eski inanç unsurlarının rolü. *Selçuklu Araştırmaları Dergisi, 10*, 269–286.

https://en.wikipedia.org

https://commons.m

https://en.wikivoyage.org

https://www.britannica.com

https://share.google